**UOT 78.03**
**https://doi.org/10.59849/2311-8482.2024.1.124**

**HƏQİQƏT YUSİFOVA***

# POLİFONİK ƏSƏRLƏRİN ÖYRƏNİLMƏSİ İSTİQAMƏTİNDƏ AZƏRBAYCAN BƏSTƏKARLARININ YARADICILIĞININ XÜSUSİYYƏTLƏRİ

*Təqdim olunan məqalədə Azərbaycan bəstəkarlarının yaradıcılığında polifonik əsərlərin öyrənilməsinə nəzər salınmış və bu istiqamətdə yaranmış bəzi əsərlərin xüsusiyyətləri araşdırılmışdır. Əsas məqsəd Azərbaycan musiqisində polifonik əsərlərin inkişaf xüsusiyyətlərini işıqlandırmaq və xalq musiqisinin elementlərinin təsirini müəyyənləşdirməkdir. Bundan irəli gələrək, məqalədə Azərbaycan bəstəkarlarının polifonik əsərlərinin musiqi dili və obraz-emosional məzmun xüsusiyyətləri araşdırılaraq, səciyyəvi xüsusiyyətləri nəzərə çatdırılır.*

***Açar sözlər:*** *Azərbaycan musiqisi, polifoniya, bəstəkar, prelüd, fuqa, janr*

## Giriş

Professional musiqi mədəniyyətində əsas yer tutan polifonik əsərlər Azərbaycan bəstəkarlarının yaradıcılığında əhəmiyyətli mövqeyə malik olmaqla yanaşı, həm də özünəməxsus səciyyəvi keyfiyyətlərə malik olmuşdur. Azərbaycan professional musiqi mədəniyyətində yaranan polifonik əsərlər forma və quruluş baxımından ənənəviliyi qoruyub saxlasa da, musiqi dili və məzmun baxımından yenilənmə əsas səciyyəvi keyfiyyət kimi vurğulanmalıdır.

Azərbaycan bəstəkarlarının fortepiano əsərlərində ilk polifonik nümunələrə professional təhsil almış ilk Azərbaycan bəstəkarı Asəf Zeynallının yaradıcılığında rast gəlinir. Onun xalq mahnıları əsasında yazılmış "İki fuqa" əsəri milli polifonik instrumental musiqinin təməlini qoymuşdur. Xalq mahnılarının səciyyəvi keyfiyyətlərini qoruyub saxlayan A.Zeynallı klassik polifonik janrın üsulları və prinsipləri ilə üzvi bağlılıq yaratmağa nail olmuşdur.

## Əsas təhlil

Milli musiqimizdə polifonik janrların aydın inkişaf prinsiplərinə və yaradıcılıq axtarışlarına əsaslanan mərhələsi 1950-60-cı illər hesab oluna bilər. Doğrudur, 1940-cı illərdə də müəyyən polifonik əsərlərin yazılmasına rast gəlinsə də, bunlar yalnız inkişafın bir mərhələsi kimi dəyərləndirilməlidir. 1940-cı illərdə dahi bəstəkar Qara Qarayevin fortepiano üçün "Üçsəsli fuqa" əsəri milli musiqi elementlərinə əsaslanan polifonik əsərlərin yaranmasına təkan verdi. Bir müddət sonra bəstəkar Elmira Nəzirovanın "12 prelüd" silsiləsinin yazılması Azərbaycan bəstəkarlarının yeni yaradıcılıq axtarışlarına sövq etməsində nəzərə çarpan amil olmuşdur.

Azərbaycan musiqisində polifonik əsərlərin yaranması istiqamətindəki təmayüllər Qara Qarayevin "24 prelüd" silsiləsində özünü büruzə vermişdir. İyirmi il ərzində meydana gələn bu silsilədə həm bəstəkarınn dünyagörüşünün formalaşmasını, həm də milli polifonik janrların təkamülünü izləmək mümkündür. Hiss və həyəcanların çoxtərəfli istiqamətləri, səmimi hisslərin emosionallığı, dramatizmin gərginliyi və dərin psixoloji yanaşmaları bu silsilədə izləmək mümkündür. Qarayevin prelüdlərində mürəkkəb harmonik və polifonik üsullar vəhdətdə verilir ki, bu da musiqiyə yenilik və orijinallıq gətirir. Eyni zamanda fortepianonun imkanlarından və ifaçılıq üsullarının müxtəlifliyindən istifadə edən Q.Qarayev fakturanın xüsusiyyətlərini də nəzərə alır. Onun əksər hallarda bu və ya digər ifaçılıq üsulunu seçməsi prelüdün əsas məzmununu müəyyənləşdirir.

Q.Qarayevin polifonik ustalığının əhəmiyyəti ikinci dəftərdən etibarən tədricən artmağa başlayır və bu xüsusiyyət dördüncü dəftərdə xüsusilə güclənir. Fəal konstruktiv üsula çevrilən polifoniklik prelüdlərin əsas xüsusiyyətini təşkil edir. Onun prelüdlərinin faktura palitrasının müxtəlifliyi miniatürlərin obrazlı-emosional məzmununun çoxcəhətliliyi ilə müəyyənləşdirilir. Bəstəkarın bədii təfəkkürünün şərhinə olan münasibətdə fortepianonun səs imkanlarının özünü göstərməsi yaradıcı düşüncələrin dərinliyi və ciddiliyindən irəli gəlmişdir. Prelüdlərin dördüncü dəftərində Qarayevin mütənasibliyə və aydınlığa cəhd göstərməsi xüsusilə duyulur. Eyni zamanda bəstəkar qeyri-adi dolğun instrumental səsə və dinamik ziddiyyətə nail olmuşdur.

Ümumiyyətlə, "24 prelüd"ün hər biri bütün yüksək-bədii cəhətləri ilə Azərbaycan fortepiano musiqisinin klassik nümunələri sırasına daxil olmuşdur. Qarayev silsilənin obraz zənginliyi və ifadə vasitələrinin səciyyəviliyi ilə ifaçılar qarşısında bir çox çətinliklərin yaranmasına səbəb olmuşdur. Bu mənada Qarayevin prelüdlərinin hər birinin Azərbaycan ifaçılarının repertuarına daxil olması bununla izah oluna bilər.

Q.Qarayev prelüdlərinin ifası zamanı əsərin əsas mahiyyətinin göstərilməsinə üstünlük verilir. Bu prelüdlər bədii yaradıcılıq təcrübəsində və ifaçılıq xüsusiyyətlərinin təcəssümündə polifonik qanunauyğunluqların olmasını labüd edir.

Pianoçu, musiqişünas T.Seyidov prelüdlərin ifaçılıq xüsusiyyətləri ilə bağlı yazır: *"Q.Qarayevin bir çox prelüdlərinin təzadlı materialı həmin ziddiyyətlərin kifayət qədər relyefli şəkildə meydana çıxarılmasını tələb edir (mi minor, re bemol major, sol diyez minor, si bemol major, si bemol minor). Lakin ifaçı hər jansı bir miniatür daxilində intonasiya təzadlarının hər bir epizodda müxtəlif olan dərəcələrini ayırd etməyi bacarmalıdır"* [5, s.102-103].

Silsiləyə daxil olan bir çox prelüdlər forma-quruluş baxımından arasıkəsilməz inkişafa malikdirlər. Q.Qarayev prelüdlərin dördüncü dəftərində metroritmik xüsusiyyətlərə üstünlük verir. Bunun səbəbini polifonik əsərlərin seçimində daha ehtiyatlı davranmaq ilə izah etmək olar. Müvafiq prelüdlərdə cəld tempin olmaması nəzərə çarpır. Bəstəkarın temp göstərişləri prelüdlərin müvafiq şəkildə müəyyənləşdirilməsi imkanını yaradır. Pedalizasiya ilə bağlı qeyd etmək lazımdır ki, prelüdlərdə qrafik ifadə tərzi nəzərə alınmalıdır. Fakturada qənaətcilliyin olması və sıx pedalın yalnız dramatik kulminasiya anlarında tətbiq olunması vacib bir məsələ kimi qabardılmalıdır.

Qarayevin prelüdləri Ə.Əzizov, A.Dadaşov, A.Əzimov və digərlərinin yaradıcılığında bu instrumental janrın inkişafı üçün əhəmiyyətli rol oynamışdır. Belə ki, Əziz Əzizovun on prelüddən ibarət olan silsiləsinin polifonik elementlərinin müəyyən olunmasında Qara Qarayevin təsirini mütləq şəkildə qeyd etmək lazımdır. Bu silsilədə polifoniklik ilk növbədə intonasiyalılıqda, ritmik sistemdə özünü göstərir ki, bu da bilavasitə xalq yaradıcılığının dərin köklərindən bəhrələnir.

Polifonik əsərlərə olan bağlılıq Azər Dadaşovun da yaradıcılığında nəzərə çarpır. A.Dadaşovun "Altı prelüd" silsiləsi S.Prokofyev və Q.Qarayevin təsiri altında yaranaraq, onların üslub xüsusiyyətlərini daşıyır. Silsiləyə daxil olan birinci prelüddə ritmik fiqurasiya və fakturanın daha sadə olması nəzərə çarpır. S.Prokofyevin "Ötəri anlar"ının təsiri bir çox prelüdlərdə müşahidə olunur. Q.Qarayevin təsiri ikinci prelüddə hiss olunur, xüsusilə ostinatolu metroritmiklik burada daha çox nəzərə çarpır. Ümumiyyətlə, prelüdlərdə nəzərə çarpan əsas xüsusiyyətlər melodikanın lirik xalq kantilena üslubunu xatırlatması, geniş təbəqəli ahəngdarlığın yaradılmasıdır. Bəzi yerlərdə oktava ikiləşmələrinə malik ikisəslilik və yaxud hansısa digər interval xəfiflik və mülayim duyğusu əmələ gətirir. Prelüdlərin dolğun fakturası geniş təbəqəlilik yaradaraq, polifonik əsərlərin öyrənilməsi istiqamətində əhəmiyyətli bir addım kimi dəyərləndirilə bilər.

Azərbaycan bəstəkarlarının polifonik əsərlərinin öyrənilməsi istiqamətində daha bir maraqlı yanaşma İsmayıl Hacıbəyovun "Paqanini mövzusuna variasiyalar" adlı əsərində öz əksini tapmışdır. Maraqlısı budur ki, Paqanini mövzusuna bir çox bəstəkarlar müraciət etmişdir və hər bir bəstəkar öz imkanlarını məhz bu əsər vasitəsilə nümayiş etdirməyə nail olmuşdur. İ.Hacıbəyovun silsiləsi ifadəli və ifaçılıq xüsusiyyətlərinin müxtəlifliyinə görə diqqəti cəlb edir. Səkkiz prelüddən ibarət olan bu silsilə həcmcə müxtəlif xarakterli musiqi nümunələrindən biridir. Silsilənin başlıca dramaturji mərkəzini inkişafedici xüsusiyyətlərə malik olan faktura və harmonik dilin mürəkkəbləşməsi təşkil edir. Eyni zamanda göstərilən ifadə vasitələrinin məqsədyönlü şəkildə mürəkkəbləşməsi hərəkət dinamikasına görə tez-tez əvəz edilən temp xüsusiyyətləri ilə növbələşir. Digər ifadə vasitələri kimi o, heç də vahid istiqamətli inkişafa malik deyildir.

Əsərin ifaçılıq xüsusiyyətləri İ.Hacıbəyovun göstərişləri ilə uzlaşaraq, temp və ritmik fiqurasiyaların hərəkətləri ilə müəyyənləşir. Eyni zamanda silsilədə polifonik əsərlər üçün səciyyəvi olan dayaq səslərinin ətrafındakı fiqurasiyalı hərəkətlər daha təmkinli səslənir. Registrlərin tam əhatə olunması, templərin müxtəlifliyi və lirik elementlərin üstünlük təşkil etməsi silsilənin səciyyəvi cəhəti kimi şərh oluna bilər. Mövzu obrazların ilkin ekspozisiyası və onların transformasiyası kimi qəbul oluna bilər. Bu xüsusiyyət polifonik əsərlərin öyrənilməsi istiqamətində mühüm amil kimi dəyərlənirilə bilər.

Aydın Əzimovun "Dörd prelüd"ü xalq üslubu ilə bağlıdır. Bəstəkar xalq yaradıcılığının

janrvari əlamətlərindən, eləcə də harmonik, ritmik xüsusiyyətlərindən məharətlə istifadə edərək, onları müxtəlif ahənglərlə inkişaf etdirir. Bu xüsusiyyət bəstəkarın əsərlərinə özünəməxsusluq bəxş edir və folklorla müasir səslənmənin üzvi vəhdəti hissini yaradır.

Nərgiz Şəfiyevanın "Altı prelüd" silsiləsi parlaq harmonik təməl üzərində qurulmuşdur. Prelüdlərin melodiyası ənənəvi-xalq üslubunda qurulmuşdur. Silsilədə melodiya və harmoniyanın arasında ziddiyyətin olmamasına rast gəlinir və bu dördüncü prelüddə daha çox hiss olunur. Birsəsli melodiyanın sadəcə olaraq oktava ikiləşmələri tərzində şərh edilməsi isə silsiləyə daxil olan prelüdlərin səciyyəvi xüsusiyyətidir.

Əziz Əzizovun "Səkkiz fuqa" silsiləsi isə formanın mürəkkəbləşməsi və onun obrazlı məzmununun dolğunlaşdırılması üsulu ilə yazılmışdır. Bu silsilə ənənəvi polifonik yazının həm mövzunun təşkilini, həm də başlanğıc materialın inkişaf etdirilmə üsullarını nümayiş etdirən maraqlı bir nümunəsidir. Silsilədəki üçüncü və dördüncü fuqaların iki mövzudan ibarət olması, beşinci fuqanın reprizada yeni kompozisiya effektini yaratması, altıncı və yeddinci fuqada işlənmənin rolunun artırılması milli musiqimizdə polifonik əsərlərin nail olduğu maraqlı xüsusiyyət kimi dəyərləndirilə bilər. Birinci fuqanın diatonik olması D.Şostakoviçin do major fuqası ilə assosiasiya yaradır. Quruluş cəhətdən isə üçsəsli fuqa ekspozisiyanın keçidlərini xatırladır. İkinci fuqanın xüsusiyyəti ondadır ki, onun işlənməsi mövzunun paralel tonallıqda yalnız bir keçidindən ibarətdir, sonra kifayət qədər böyük repriza başlanır. Quruluş baxımından üçüncü fuqa daha mürəkkəbdir. İkimövzulu olan bu fuqanın ekspozisiyaları ayrıdır və onlardan heç biri işlənməyə məruz qalmır. Ekspozisiya hissəsindən sonra yaranan böyük intermediyada ikinci mövzunun işlənilməsi baş verir. Onu da qeyd edək ki, ikinci mövzu daha çox inkişaf etdirilir və hətta uzaq tonallıqlara doğru gedişlər baş verir. Ümumi repriza hər iki mövzunun əsas tonallıqda iki dəfə stretta ilə keçidində özünü göstərir. Burada onların yaxınlaşması və qarşılıqlı əlaqəsi baş verir. Üçüncü və dördüncü fuqalar iki mövzudan ibarət olub, əsasən oxşar quruluş xüsusiyyətlərinə malikdir. Lakin reprizada hər iki mövzu yenə də ayrı-ayrılıqda göstərilmişdir. Bu zaman həlledici rolu ikinci mövzu yerinə yetirir və bu isə fuqanın təntənəli səslənmə ilə başa çatmasını şərtləndirir. Beşinci fuqanın fərqləndirici xüsusiyyəti reprizada əlavə ekspozisiyanın verilməsidir. Formanın iki bölməsinin qarşılıqlı əlaqəsi yeni kompozisiya effekti yaradır. Altıncı fuqada mövzu böyük motivli işlənməyə məruz qalır. Onun başlanğıc intonasiyaları İ.S.Baxın "Yaxşı temperasiyalı klavir" silsiləsinin birinci cildindən si bemol major fuqasına bənzəyərək, həm intermediyalara, həm də dolğun işlənmə bölməsinə təkan verir. Fuqanı tamamlayan koda köməkçi tematik səs elementlərinə malik olub, akkordlu xoral xarakterinə əsaslanır. Bütün əvvəlkilərdən fərqli olaraq, yeddinci fuqa ikisəslidir və onun fərqləndirici cəhəti ondan ibarətdir ki, cavab dominantaya deyil, subdominantaya həvalə olunur. Silsilənin səkkizinci fuqası irihəcmli və mövzunun genişliyi ilə fərqlənir. Bununla bərabər, kiçik işlənməli bu ikisəsli fuqa başlıca dayaq nöqtəsinə məhz reprizada malik olur. Səslənmənin xarakterinə görə repriza polifonikliyi itirir – o, öz daxilində virtuoz pianizm cizgilərinin tematik keçidlərlə növbələşməsini sintezləşdirir. Dərin mənaya malik oktavalı basların fonunda səslənən mövzu üzərində əksidilmiş stretta verilmişdir.

Ümumiyyətlə, fuqalarda ciddi qaydalara riayət edən Ə.Əzizovdan fərqli olaraq, A.Dadaşovun 1969-cu ildə yazılmış prelüd və fuqası polifonik formanın sərbəst şərhinə görə seçilir. Onu da qeyd edək ki, silsilənin ilk ifaçısı Xalq artisti, görkəmli bəstəkar Firəngiz Əlizadə olmuşdur. Silsiləni təşkil edən amillər öz üslub əlamətlərinə görə bir-biri ilə ziddiyyət təşkil edir. Məsələn, prelüd çoxsəsli xoralı xatırladır, burada onun bütün səciyyəvi cizgiləri mövcuddur: hər bir melodik xətt ciddi şəkildə davam etdirilir, saxlanılan səslər, sinkopalar, dissonans komplekslərinin həlli – bütün bu cəhətlər onu ciddi üslub polifoniyasının nümunələrinə yaxınlaşdırır.

Eyni zamanda fuqa klassik qanunlara uyğun tərzdə qurulmamışdır. Mövzunun lad mərkəzlərinin münasibəti müxtəlif keçidlər zamanı əvvəlki tonika-dominanta əlaqələrini itirir və başlanğıc səsi olan lya-bemoldan yarım ton yuxarı və aşağıya doğru müvafiq hərəkətlər edir.

Azərbaycan musiqisində yaranan maraqlı polifonik əsərlər arasında Boris Yermolayevin də adı qeyd edilməlidir. Onun iki dəftərdən ibarət polifonik əsərləri ifaçılıq xüsusiyyətlərinin müxtəlifiliyi baxımından seçilir. İki invensiya, fuqetta və iki fuqadan təşkil olunmuş birinci dəftər 1965-ci ildə yazılmışdır. Eyni ildə yazılmış ikinci dəftər isə iki prelüd, fuqa və fuqettadan ibarətdir. Qeyd edək ki, fuqettanın mövzusu Q.Qarayevin re major prelüdünün mövzusu əsasında qurulmuşdur. Bəstəkar hər iki silsilədə pyeslərin ifaçılıq xüsusiyyətlərini mürəkkəbliyə doğru bir səviyyədə yazmışdır.

Hər iki silsilənin musiqi dili baxımından Azərbaycan xalq musiqisinin intonasiya xüsusiyyətlərinə yaxın olması xüsusilə vurğulanmalıdır. Belə ki, milli folklor musiqisi üçün səciyyəvi olan üçtəqtili ölçünün (6/8) olması və mürəkkəb ritmik fiqurların üstünlük təşkil etməsi, eləcə də metroritmik xüsusiyyətlər silsilələrə özünəməxsusluq bəxş edir. Artırılmış sekundalı səslənmələr, xalq mahnıvari intonasiyaların istifadəsi, registr xüsusiyyətləri bu iki silsiləni milli polifonik üslubun inkişafı istiqamətində əhəmiyyətli rol oynayan əsər kimi dəyərləndirməyə imkan verir. Digər maraqlı cəhət isə bundan ibarətdir ki, 1960-cı illərdə Azərbaycan bəstəkarlarının yaradıcılığında geniş yayılmış on iki təkrarlanmayan səs üzərində qurulmuş texnika ikinci dəftərin iki prelüd və fuqasında əksini tapmışdır.

Musa Mirzəyev "Lirik passakaliya" əsərində "Gül açdı" Azərbaycan xalq mahnısının mövzusundan istifadə edərək, bunun əsasında polifonik variasiyalar qurmuşdur.

Xəyyam Mirzəzadənin "Ağlar və qaralar" prelüd silsiləsi intellektual-psixoloji fikirlərinin dərinliyinə, musiqi dilinin orijinal xüsusiyyətlərinə görə fərqlənir. Bu silsilə həm janr xüsusiyyətləri, həm də ifaçılıq baxımından maraq doğurur. Belə ki, funksional major-minor sisteminin əyani göstərilməsindən uzaq olması prelüdlərin özünəməxsus cəhəti kimi qeyd olunmalıdır. Onu da qeyd edək ki, silsilə özünəməxsus quruluşa malikdir: *"Birinci dəftərdəki prelüdlər fortepianonun ağ dilləri üzrə yuxarı istiqamətdə pilləvari ardıcıllıqla düzülmüşdür ("do", "re", "mi", "fa", "sol", "lya", "si"). İkinci dəftərdə isə prelüdlər fortepianonun qara dilləri üzrə aşağıya doğru ardıcıllaşır ("si-bemol", "lya-bemol", "fa-diyez", "re-diyez", "do-diyez")"* [1, s.604]. Silsilədəki prelüdlərin mürəkkəb stilistikaya malik olması da milli polifonik əsərlərin arasında fərqlilik yaradır. Eyni zamanda bəstəkarın polifoniyaya yanaşmaları, harmoniya, melodiya və fakturada özünü büruzə verən linearlıq digər əsərlərində bu qədər qabarıq verilməmişdir. Ümumiyyətlə, "Ağlar və qaralar" silsiləsində bir çox cəhətləri – polifonik tematizmi, ciddi və sərbəst üslubun vəhdətini, Bax-Şostakoviç-Qarayev polifoniyasının və muğam melodikasının inkişaf prinsiplərinin sintezini görmək mümkündür. Bu cəhətlər X.Mirzəzadə melosunun əsas xüsusiyyətlərinə, onun məqamlara yanaşmada özünəməxsusluğunu göstərir.

Fərəc Qarayevin prelüd, invensiya və fuqettadan ibarət "Triptix" əsəri ifaçılıq xüsusiyyətlərinə görə sadə olan və çətinlikləri özündə ifadə etməyən silsilə olub, əsasən gənc ifaçılar üçün nəzərdə tutulmuşdur. Obraz-emosional məzmunun müxtəlifliyinə görə, "Triptix" Azərbaycan polifonik musiqisinin inkişafı istiqamətində mühüm bir mərhələni təşkil edir.

Sərdar Fərəcovun fortepiano üçün yazdığı "Prelüdlər" silsiləsi, eləcə də fuqaları bəstəkarın tələbəlik dövrünə aiddir. Bu əsərlərdə Avropa musiqisinə aid janrlarda milli musiqinin xüsusiyyətləri müşahidə olunur. Eyni zamanda S.Fərəcovun fərdi dəst-xəttinə xas olan mövzunun dərinliyinə nüfuz etmə, fortepianonun dəqiq ritmik vurğuları onun polifonik əsərlərində müşahidə olunur.

Polifonik əsərlərin yaranması bəstəkar E.Dadaşovanın da yaradıcılığında müşahidə olunur. Polifonik düşüncə tərzinə malik olan bəstəkarın əsərlərində polifoniya yalnız müəyyən janrlara müraciət edilməsində deyil, eyni zamanda düşüncə tərzində də nəzərə çarpır. E.Dadaşovanın prelüdləri bəstəkarın aforistik yazı üslubunu, minimum ifadə vasitələrinin köməyilə cazibədar obraz yaratmaq bacarığını üzə çıxarır. O, miniatürü səciyyələndirən əsas prinsipə riayət edir: başlıca intonasiyanı, harmoniyanı, fakturanı qısa ibarədə yığcamlaşdırıb, elə ilk xanələrdən başlayaraq, əsas obraz-emosional məzmunu ifadə etmək bacarığına malik olur.

E.Dadaşovanın son dövrə aid uğurları sırasında fortepiano üçün "Azərbaycan muğam ladlarında 21 fuqa" silsiləsi xüsusilə qeyd olunmalıdır. İki dəftərdən ibarət olan bu silsilə 2010-2012-ci illərdə yazılmışdır. Burada bəstəkarın elmi qənaətləri və polifoniya sahəsində bilikləri ümumiləşdirilir. E.Dadaşovanın polifonik silsiləsinin özəlliyi ondadır ki, o, major-minor ardıcıllığı prinsipindən imtina edərək, fuqaları Azərbaycan məqamlarının qohumluq əlaqələrinə əsasən ardıcıllaşdırır: bəstəkar I dəftəri təşkil edən 15 fuqanı üç-üç – Rast, Şur, Segah kimi paralel qohum məqamlarda bəstələyib, kvarta dairəsi üzrə hərəkət edir. Silsilənin II dəftərində fuqalar məqam-tonallıqların I dərəcəli qohumluq prinsipinə uyğun olaraq Bayatı-Şiraz ailəsinə mənsub Müxalif, Zabul, Hümayun, Şüştər, Çahargahda yazılıb. Beləliklə, silsilə quruluşunun hələ çox-çox əvvəl bərqərar olmuş qaydalarını E.Dadaşova milli musiqi qanunauyğunluqlarının yaradıcı tətbiqi hesabına dəyişdirir, sırf tədris xarakterli pyeslərdən uzaqlaşaraq, bədii həlli ilə seçilən əsərlər yaradır. O, polifonik formanın tələblərinə riayət etsə də, texniki vəzifələrin həllini bədii qayənin təcəssümü ilə nümayiş etdirir.

**Nəticə**

Beləliklə, Azərbaycan bəstəkarlarının yaradıcılığında polifonik əsərlərin müəyyən bir hissəsinə nəzər saldıqda, bu sahədə böyük bir irəliləyişin olması diqqəti cəlb edir. Yaranan ilk nümunələrdə Avropa musiqi ənənələrindən irəli gələn xüsusiyyətlər diqqəti cəlb etsə də, inkişaf nəticəsində polifonik əsərlərin öyrənilməsi zamanı onların milli musiqinin xüsusiyyətləri ilə zənginləşməsi diqqəti cəlb edir. Bu mənada milli musiqimizdə yaranan polifonik əsərləri müşahidə etdikdə onların musiqi dili və obraz-emosional məzmun baxımından zənginləşməsini xüsusilə vurğulamaq mümkündür. Bu xüsusiyyət Azərbaycan musiqisində polifonik əsərlərin öyrənilməsi istiqamətində mühüm amil kimi dəyərləndirilə bilər.

## ƏDƏBİYYAT


1. Azərbaycan musiqi tarixi [5 cilddə] / tərt. ed. Z.Səfərova – Bakı: Elm, – c. 4. – 2019. – 823 s.
2. Dadaşzadə, Z.A. Biz bu dünyanın bir hissəsiyik. Məqalələr toplusu / Z.A.Dadaşzadə. – Bakı: Nurlan, – 2004. – 412 s.
3. Qarayev, Q.Ə. Oçerklər / Q.Ə.Qarayev. – Bakı: Çinar-Çap, – 2003. – 280 s.
4. Qasımova, S.C. Azərbaycan musiqi ədəbiyyatı / S.C.Qasımova. – Bakı: Adiloğlu, – 2009. – 248 s.
5. Seyidov, T.M. XX əsrin Azərbaycan fortepiano mədəniyyəti: Pedaqogika, ifaçılıq və bəstəkarlıq yaradıcılığı / T.M.Seyidov. – Bakı: Təhsil, – 2016. – 336 s.
6. Актуальные проблемы фортепианного исполнительства и педагогики / сост. Ф.Ш.Бадалбейли. – Баку: Адилоглу, – 2008. – 152 с.
7. Алиева, З.Г. Фортепианные произведения Кара Караева. Некоторые вопросы стиля и исполнительской интерпретации: / автореферат дис. доктора философии по искусствоведению. / – Баку, 1973. – 24 с.
8. Гаккель, Л.Е. Фортепианная музыка XX века. Очерки / Л.Е.Гаккель. – Москва: Советский композитор, – 1990. – 286 с.


**** Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının***
***“Metodika və xüsusi pedaqoji hazırlıq” kafedrasının dosenti***
***Sənətşünaslıq üzrə fəlsəfə doktoru,***
***e-mail: hagigat67@mail.ru***

**Haqiqat Yusifova**

## FEATURES OF THE CREATIVITY OF AZERBAIJANI COMPOSERS IN THE DIRECTION OF STUDYING POLYPHONIC WORKS

The presented article examined the study of polyphonic works in the works of Azerbaijani composers and examined the features of some works created in this direction. The main goal is to highlight the features of the development of polyphonic works in Azerbaijani music and determine the influence of elements of folk music. Based on this, the article examines the features of the musical language and figurative and emotional content of polyphonic works of Azerbaijani composers, taking into account their characteristic features.

**Keywords:** *Azerbaijani music, polyphony, composer, prelude, fugue, genre*

**Хагигат Юсифова**

## ОСОБЕННОСТИ ТВОРЧЕСТВА АЗЕРБАЙДЖАНСКИХ КОМПОЗИТОРОВ В ИЗУЧЕНИИ ПОЛИФОНИЧЕСКИХ ПРОИЗВЕДЕНИЙ

В представленной статье было рассмотрено исследование полифонических произведений в творчестве азербайджанских композиторов и исследованы особенности некоторых произведений, созданных в этом направлении. Основная цель – осветить особенности развития полифонических произведений в азербайджанской музыке и определить влияние элементов народной музыки. Исходя из этого, в статье рассматриваются особенности музыкального языка и образно-эмоционального содержания полифонических произведений азербайджанских композиторов, учитываются их характерные особенности.

**Ключевые слова:** *Азербайджанская музыка, полифония, композитор, прелюдия, фуга, жанр*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 10.02.2024**
**Son daxilolma tarixi:11.03.2024**